AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 12/2

Bakı şəhəri 01 noyabr 2017-ci il

"Elmin kommersiyalaşdırılması və bilik əsaslı iqtisadiyyatın inkişafında özəl sektorun rolu" adlı Biznes Forumun keçirilməsi haqqında

AMEA-da həyata keçirilən islahatların mühüm istiqamətlərindən birini elmi tədqiqat müəssisələri ilə biznes sahəsinin əməkdaşlığının inkişaf etdirilməsi, bu məqsədlə intellektual kapitalın və innovasiya sahibkarlığının inkişafı üçün işgüzar mühitin formalaşdırılması təşkil edir. Bu məqsədə nail olmaq üçün elmi tədqiqat işlərinin sənayenin və real biznesin, o cümlədən aqrar sektorun tələblərinə uyğunlaşdırılması, iri, orta və kiçik sahibkarlığın inkişafına innovativ yanaşmalarla dəstək verilməsi, innovasiya iqtisadiyyatının, eləcə də təhlükəsizliyin təmin olunmasına elmi əsaslı töhfələrin verilməsi, innovativ iqtisadi ekosistemin inkişaf etdirilməsi və intellektual potensialın dəstəklənməsi qarşıda duran əsas vəzifələrdəndir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. 01-02 mart 2018-ci il tarixlərində Azərbaycan Milli Elmlər Akademiyasının, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin və Azərbaycanda Amerika Ticarət Palatasının (AmCham) təşkilatçılığı ilə "Elmin kommersiyalaşdırılması və bilik əsaslı iqtisadiyyatın inkişafında özəl sektorun rolu" adlı Biznes Forum keçirilsin.
2. Biznes Forumun keçirilməsi ilə əlaqədar AMEA-da Təşkilat Komitəsi, AMEA YTP-də isə işçi qrupu yaradılsın.
3. Biznes Forumun keçirilməsi ilə əlaqədar texniki və təşkilati məsələlərin həlli AMEA İşlər idarəsinə (siyasi elmlər üzrə elmlər doktoru Fətəli Abdullayev) tapşırılsın.
4. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT